2022

# AZƏRBAYCAN ÜZRƏ DƏMİRYOLU DAŞIMALARININ STATİSTİK MƏLUMATLARI



ALLIANCE LOGISTICS

# MÜNDƏRİCAT

2022-Cİ İL ÜÇÜN DAŞIMALARIN ÜMUMİ HƏCMİ……………………………3

DƏMİR YOLU DAŞIMALARININ TARİXİ DİNAMİKASI (2009-2022)….4

DƏMİR YOLU VƏ KONTEYNER DAŞIMALARINDA

ƏSAS TRENDLƏR (2018-2022)………………………………………………5

TRANZİT REJİMİNDƏ YÜKDAŞIMALARIN ÜMUMİ HƏCMİ……………6

ŞƏRQ-QƏRB DƏHLİZİ ÜZRƏ YÜKDAŞIMALARIN HƏCMİ………………7

İDXAL REJİMİNDƏ YÜKDAŞIMALARIN ÜMUMİ HƏCMİ…………………8

İXRAC REJİMİNDƏ YÜKDAŞIMALARIN ÜMUMİ HƏCMİ…………………9

NƏTİCƏLƏR………………………………………………………………………10

# 2022-CI İL ÜÇÜN DAŞIMALARIN ÜMUMİ HƏCMİ

2022-ci ildə Azərbaycan Dəmir Yolları ilə ümumilikdə 18,7 milyon ton yük daşınıb. Dəmir yolu xətti ilə daşınan yüklərin ümumi həcmində tranzit yükdaşımalarının payı ən böyükdür - 40%. Onlardan sonra idxal (25%) və ixrac (16%) rejimi ilə daşınan yüklər və daxili daşımalar (18%) gəlir.

2022-ci ildə "ADY" QSC-nin vasitəsilə konteyner daşımaları 81,5 min TEU-ya çatmışdır ki, bunun da 79% dolu, 21% isə boş konteynerlərdir.

Qrafik 1. ADY daşımaların 2022-ci il üçün ümumi həcmi (mln.ton)




Mənbə: Alliance Logistics

Qrafik 2. Konteyner daşımalarının 2022-ci il üçün sayı (min TEU)




Mənbə: Alliance Logistics

# DƏMİRYOLU DAŞIMALARININ TARİXİ DİNAMİKASI (2009-2023)

2013-cü ildən başlayaraq 2018-ci ilə qədər "Azərbaycan Dəmir Yolları" QSC tərəfindən yükdaşımaların ümumi həcmində davamlı azalma müşahidə olunur. Yalnız 2022-ci ildə əsasən dəyişən regional siyasi və iqtisadi mühitlə bağlı daşımalarda nisbi artımı qeyd edə bilərik. Buna baxmayaraq, dəmiryolu nəqliyyatı bu gün hələ də öz potensialının yalnız bir hissəsindən istifadə edir.

Qrafik 3. Dəmiryolu daşımalarının dinamikası (2009-2022) (mln.ton)



# DƏMİRYOLU VƏ KONTEYNER DAŞIMALARINDA ƏSAS TRENDLƏR (2018-2022)

Son beş ildə dəmiryolu daşımaları qlobal və regional iqtisadiyyatda və ticarətdə mürəkkəb prosesləri əks etdirən çox istiqamətli dinamika nümayiş etdirmişdir. Göründüyü kimi, tranzit ADY üzrə nəqliyyatın potensial artımının əsas mənbəyidir.

Qrafik 4. Son 5 ildə dəmiryolu daşımalarının əsas cari göstəriciləri və trendləri (mln.ton)




Mənbə:
Alliance Logistics

Son bir ildə konteyner daşımalarında muşahidə olunan həcm artımı dolu konteynerlərin sayının çoxalması ilə bağlıdır, bu isə dəmir yolların iqtisadi inkişafına müsbət təsir göstərən amillərdən biridir.

Qrafik 5. Son 5 ildə konteyner daşımalarının dinamikası (min TEU)




Mənbə:
Alliance Logistics

# TRANZİT REJİMİNDƏ YÜKDAŞIMALARIN ÜMUMİ HƏCMİ

Tranzitdə neft yüklərinin payının artması son illərdə nəzərə çarpan tendensiya olmuşdur. Tranzit daşımalarında 2022-ci ildə xam neft və neft məhsullarının nəqlində 2021-ci illə müqayisədə 2 dəfə artım müşahidə olunmuş və bu sektorda ümumi daşıma 2,9 mln tonuna qədər artıb. Yük bazasının şaxələndirilməsi və tranzit coğrafiyasının genişləndirilməsi onun davamlı artımını təmin etmək və neft yüklərindən asılılığı azaltmaq üçün zərurətə çevrilir. Həmçinin, tranzit daşımaların artımını ləngidən əsas problemlərdən biri konteynerləşmənin həddən artıq aşağı səviyyədə olmasıdır.

Qrafik 6. ADY tərəfindən son 5 ildə tranzit rejimində daşınan yüklərin müqayisəsi (mln.ton)




Mənbə:
Alliance Logistics

Qrafik 7. Tranzit rejimində son 5 ildə konteyner daşımalarının dinamikası (min TEU)




Mənbə:
Alliance Logistics

# ŞƏRQ-QƏRB DƏHLİZİ İLƏ YÜKDAŞIMALARIN HƏCMİ

2022-cü ildə tranzit daşımaların həcmində əhəmiyyətli artım müşahidə olunub, əsasən də Şərq-Qərb dəhlizi üzrə. Ən çox nəzərəçarpacaq artım Çin (32%) və Mərkəzi Asiya ölkələrindən (57%) məhz tranzit daşımalarının həcmində müşahidə olunur.

Qrafik 8. Mərkəzi Asiyadan tranzit daşımaları.




Mənbə:
Alliance Logistics

Qrafik 9. Çindən tranzit daşımaları




Mənbə:
Alliance Logistics

# İDXAL REJİMİNDƏ YÜKDAŞIMALARIN ÜMUMİ HƏCMİ

İdxal sektorun yükdaşıma həcmlərində nisbi sabitlik müşahidə olunur. Durğunluq tendensiyasının böyük ehtimalla davam edəcəyini nəzərə alsaq, həcmlərdə kəskin sıçrayışlar və ya yük bazasının strukturunda dəyişikliklər gözlənilmir.

Qrafik 10. İdxal rejimində yükdaşımanın ümumi həcmi




Mənbə:
Alliance Logistics

# İXRAC REJİMİNDƏ YÜKDAŞIMALARININ ÜMUMİ HƏCMİ

2020-ci ildən sonra ixrac rejimi üzrə boş konteynerlərin sayında azalma müşahidə olunur, minimum göstərici isə 2022-ci ilə təsadüf edib. Bu tendensiya gələcəkdə də davam edə bilər ki, bu da logistika proseslərini optimallaşdırmağa və beynəlxalq ticarətdə xərcləri azaltmağa istiqamətləndirilmişdir. 5 il ərzində yerli istehsalın inkişafı sayəsində ixrac daşımalarının həcmində artım, 2022-ci ildə isə müəyyən qədər azalma müşahidə olunub.

Qrafik 11. İxrac rejimində yükdaşımanın ümumi həcmi




Mənbə:
Alliance Logistics

# NƏTİCƏLƏR

Yekun olaraq belə qənaətə gəlmək olar ki, regionun geosiyasi vəziyyətinin dəyişməsi ilə əlaqədar 2022-ci ildə ümumilikdə, xüsusən də tranzit rejimi üzrə, yükdaşımaların həcmində artım müşahidə olunub. İdxal rejimi üzrə daşımaların həcmində də artım qeydə alınıb. İxrac rejimində isə son illərin artım trendinə baxmayaraq, 2022-ci ildə cüzi azalma baş verib.

Beynəlxalq logistikada mövcud tendensiyaları nəzərə alaraq belə nəticəyə gəlmək olar ki, yükdaşımaların miqyasını və onun coğrafi əhatə dairəsini genişləndirmək üçün konteynerləşdirmə mühüm aspektdir. Bununla belə, etiraf etmək lazımdır ki, konteynerləşdirmənin hazırkı səviyyəsi Azərbaycanda logistika sektorunun dəmir yolu seqmentinin inkişaf ehtiyaclarına cavab vermir. Bu, ölkədə sektorun davamlı artımını təmin etmək üçün strategiyaların nəzərdən keçirilməsi və yeni yanaşmaların tətbiqi zərurətini vurğulayır.